## “Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün Dövlət Proqramı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının əlaqələndirilməsi Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə həvalə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 fevral 2015-ci il
№ 1044

Azərbaycan Respublikası Prezidentinin
2015-ci il 10 fevral tarixli 1044 nömrəli Sərəncamı ilə
TƏSDİQ EDİLMİŞDİR

### Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün

### D Ö V L Ə T P R O Q R A M I

### 1. Giriş

Talassemiya valideynlərdən uşaqlara gen vasitəsilə keçən ağır irsi qan xəstəliyidir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, dünyada 250 milyondan artıq talassemiya daşıyıcısı və təxminən 300 min talassemiyalı xəstə vardır.

Azərbaycan da talassemiyanın geniş yayıldığı ölkələr sırasındadır. Hər il respublikada 200-dən artıq uşaq bu xəstəliklə doğulur. Şəki, Ağdaş, Masallı, Sabirabad, Oğuz, Göyçay rayonlarında həmin xəstəliyə daha çox rast gəlinir.

Son illərdə talassemiya xəstəliyinin müalicəsi və diaqnostikası istiqamətində mühüm tədbirlər görülmüşdür. “Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş

şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 18 iyul tarixli 264 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları ilə təsdiq edilmiş tədbirlər proqramlarının həyata keçirilməsi bu xəstələrin donor qanına və dəmirqovucu dərman preparatlarına ehtiyacının tam ödənilməsinə, onların sağlamlıq vəziyyətinin yaxşılaşmasına imkan yaratmışdır.

Son illərdə bir sıra qeyri-hökumət təşkilatının iştirakı ilə talassemiyalı xəstələrin aşkarlanması və müalicəsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Belə ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Respublika Talassemiya Mərkəzinin yaradılması nəticəsində bu xəstələrin müalicəsinin müasir səviyyədə təşkili mümkün olmuşdur. Artıq talassemiyanın radikal müalicə üsulu olan sümük iliyi transplantasiyasının da həyata keçirilməsinə başlanmışdır.

Görülən tədbirlər nəticəsində talassemiyalı xəstələrin normal həyat fəaliyyəti təmin olunmuş, bu xəstəlikdən əlillik və ölüm halları azalmışdır.

Əhali arasında talassemiyanın profilaktikası istiqamətində də kompleks tədbirlər görülməsinə zərurət yaranmışdır. Bu məqsədlə respublikada maarifləndirmə, sosial səfərbərlik tədbirləri, xüsusən, risk qruplarını müəyyən etmək üçün nikaha daxil olmaq istəyən şəxslərin əvvəlcədən tibbi müayinədən keçməsi kimi tədbirlərə ehtiyac vardır.

“Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün Dövlət Proqramı” (bundan sonra – Dövlət Proqramı) talassemiyanın profilaktikasının gücləndirilməsinə, əhali arasında maarifləndirmə işlərinin genişləndirilməsinə və ümumən, talassemiyalı xəstələrə göstərilən tibbi yardımın təkmilləşdirilməsinə yönəlmişdir.

## 2. Dövlət Proqramının məqsədi və əsas vəzifələri

2.1. Dövlət Proqramının məqsədi Azərbaycan Respublikasında talassemiya xəstəliyinin profilaktikasının və müalicəsinin təkmilləşdirilməsi yolu ilə xəstələnmə, əlillik və ölüm hallarının azaldılmasından ibarətdir.

2.2. Dövlət Proqramının əsas vəzifələri aşağıdakılardır:

2.2.1. talassemiyanın profilaktikasının gücləndirilməsi və talassemiyalı xəstələrə göstərilən tibbi yardımın keyfiyyətinin daha da yüksəldilməsi;

2.2.2. talassemiya daşıyıcılarının aşkar edilməsi üçün laboratoriya müayinələrinin genişləndirilməsi;

2.2.3. talassemiya daşıyıcılarına və talassemiyalı xəstələrə həkim məsləhətinin təşkili;

2.2.4. müasir informasiya texnologiyalarından istifadə etməklə, talassemiya üzərində nəzarət sisteminin təşkili;

2.2.5. dölün prenatal diaqnostikasının təşkili;

2.2.6. əhalinin talassemiyaya dair maarifləndirilməsi və sosial səfərbərliyi.

## 3. Dövlət Proqramının maliyyələşdirilməsi

3.1. Dövlət Proqramının reallaşması üçün tələb olunan xərclər müvafiq illər üçün dövlət büdcəsinin "Səhiyyə" bölməsi üzrə nəzərdə tutulmuş vəsait, habelə büdcədənkənar vəsaitlər, kreditlər və qrantlar hesabına maliyyələşdirilir.

## 4. Dövlət Proqramının həyata keçirilməsindən gözlənilən nəticələr

4.1. Dövlət Proqramının həyata keçirilməsindən gözlənilən nəticələr aşağıdakılardır:

4.1.1. talassemiyalı xəstələrin sağlamlığının qorunması sahəsində tibbi xidmətlərin keyfiyyətinin yüksəlməsi;

4.1.2. nikaha daxil olmaq istəyən şəxslər arasında talassemiya daşıyıcılarının aşkar edilməsi və onlara həkim məsləhəti verilməsi;

4.1.3. prenatal diaqnostikanın tətbiqi;

4.1.4. talassemiyalı xəstələrin sayının kəskin azalması;

4.1.5. əhalinin talassemiya xəstəliyi sahəsində biliklərinin artması.

## 5. Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planı

| Sıra №-si | Tədbirin adı | İcraçı orqanlar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| **5.1. Dövlət Proqramının həyata keçirilməsi üzrə təşkilati tədbirlər** | | | |
| 5.1.1. | Talassemiya daşıyıcılarının aşkar edilməsi sahəsində normativ hüquqi aktların hazırlanması və qəbul edilməsi | Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi | 2015 |
| 5.1.2. | Nikaha daxil olmaq istəyənlər arasında talassemiya daşıyıcıları üzrə vahid elektron proqramın hazırlanması və tətbiq edilməsi | Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi | 2015 |
| 5.1.3. | Müasir informasiya texnologiyalarından istifadə etməklə, talassemiya üzərində nəzarət sisteminin təşkili | Səhiyyə Nazirliyi | 2015-2016 |
| 5.1.4. | Dövlət Proqramının icrasına nəzarətin həyata keçirilməsi və icmal hesabatların hazırlanması | Səhiyyə Nazirliyi | mütəmadi |
| **5.2. Tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi** | | | |
| 5.2.1.[1] | ~~Respublika~~ Talassemiya Mərkəzində,<br>B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda, | Səhiyyə Nazirliyi | 2015<br>2015<br><br><br>2018-2019 |

| | | | |
|---|---|---|---|
| | Mərkəzi Qan Bankının rayon bölmələrində talassemiyanın kapillyar elektroforez üsulu ilə müayinəsinin təşkili | | |
| 5.2.2. | Talassemiya daşıyıcılarının aşkar edilməsi məqsədi ilə tibb müəssisələrinin zəruri avadanlıq və reaktivlərlə təmin edilməsi | Səhiyyə Nazirliyi | mütəmadi |
| 5.2.3. | Qan nümunələrinin müvafiq laboratoriyalara çatdırılması üçün B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun 10 ədəd avtomobillə təmin edilməsi | Səhiyyə Nazirliyi | 2015 |
| **5.3. Talassemiya daşıyıcılarının aşkar edilməsi və həkim məsləhəti verilməsi** | | | |
| 5.3.1. | Talassemiya daşıyıcılarının aşkar edilməsi məqsədi ilə nikaha daxil olmaq istəyən şəxslərin müayinəsinin aparılması | Səhiyyə Nazirliyi | mütəmadi |
| 5.3.2. | Talassemiya daşıyıcılığı aşkar olunan cütlərə həkim məsləhəti verilməsi | Səhiyyə Nazirliyi | mütəmadi |
| **5.4. Dölün prenatal diaqnostikası** | | | |
| 5.4.1. | Respublika Perinatal Mərkəzində və Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunda,<br>regional perinatal mərkəzlərdə talassemiya daşıyıcısı olan hamilə qadınlardan döl materialının götürülməsinin təşkili | Səhiyyə Nazirliyi | 2015<br><br>2017-2018 |
| 5.4.2. | ~~Respublika~~ Talassemiya Mərkəzində və B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda döl materiallarının molekulyar-genetik müayinəsinin aparılması | Səhiyyə Nazirliyi | mütəmadi |
| **5.5. Talassemiyanın müalicəsinin təkmilləşdirilməsi** | | | |
| 5.5.1. | Klinik protokollara uyğun olaraq, talassemiyanın radikal müalicəsinin - sümük iliyi transplantasiyasının həyata keçirilməsi | Səhiyyə Nazirliyi | mütəmadi |
| 5.5.2. | Talassemiyanın müasir müalicə üsullarının tətbiqi yolu ilə xəstəliyin fəsadlarının qarşısının alınması | Səhiyyə Nazirliyi | 2015 - 2020 |
| 5.5.3. | Talassemiyanın profilaktikası və müalicəsi üzrə klinik protokolların, metodik | Səhiyyə Nazirliyi | 2015 - 2020 |

| | | | |
|---|---|---|---|
| | vəsaitlərin, təlimatların və elmi ədəbiyyatın hazırlanması | | |
| **5.6. Kadr hazırlığı** | | | |
| 5.6.1. | Talassemiyanın profilaktikası, diaqnostikası və müalicəsi üzrə mütəxəssislərin hazırlanması (o cümlədən xarici ölkələrdə) | Səhiyyə Nazirliyi | 2015 - 2020 |
| 5.6.2. | Baza ali tibb və rezidentura təhsili proqramlarında hematologiya üzrə tədris saatlarının artırılması | Səhiyyə Nazirliyi | 2015 - 2016 |
| 5.6.3. | Respublikanın şəhər və rayonlarında talassemiya üzrə mütəxəssislərin hazırlanması | Səhiyyə Nazirliyi | mütəmadi |
| 5.6.4. | Həkimlər üçün talassemiyanın aktual problemləri üzrə tematik kursların təşkili | Səhiyyə Nazirliyi | mütəmadi |
| 5.6.5. | Talassemiya üzrə mütəxəssislərin beynəlxalq konqres, konfrans və simpoziumlarda iştirakının təmin edilməsi | Səhiyyə Nazirliyi | mütəmadi |
| 5.6.6. | İlkin səhiyyə xidməti müəssisələrində çalışan tibb işçiləri üçün talassemiyanın profilaktikası üzrə treninqlərin təşkili | Səhiyyə Nazirliyi | mütəmadi |
| **5.7. Əhalinin talassemiyaya dair maarifləndirilməsi** | | | |
| 5.7.1. | Ümumi təhsil müəssisələrində biologiya üzrə fənn proqramı çərçivəsində talassemiya haqqında mövzunun tədris edilməsi | Təhsil Nazirliyi | mütəmadi |
| 5.7.2. | Talassemiyaya dair populyar ədəbiyyatın, bukletlərin, vərəqələrin, plakatların çap edilməsi və yayılması | Səhiyyə Nazirliyi | 2015 - 2020 |
| 5.7.3. | Əhali arasında talassemiyanın profilaktikası sahəsində geniş maarifləndirmə işinin həyata keçirilməsi | Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları | mütəmadi |

| | | | |
|---|---|---|---|
| 5.7.4. | Talassemiyanın profilaktikasına dair məlumatların kütləvi informasiya vasitələri ilə əhaliyə çatdırılması | Səhiyyə Nazirliyi, kütləvi informasiya vasitələri | mütəmadi |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 19 fevral 2018-ci il tarixli **3685** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 20 fevral 2018-ci il, № 39)**

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 19 fevral 2018-ci il tarixli **3685** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 20 fevral 2018-ci il, № 39)** ilə "Talassemiya ilə mübarizəyə dair 2015–2020-ci illər üçün Dövlət Proqramı"nın 5.2.1-ci və 5.4.2-ci yarımbəndlərindən "**Respublika**" sözü çıxarılmışdır.